

**Azərbaycan mövcud olduğu gündən bu günə kimi müxtəlif faciələrlə, fəlakətlərlə üz-üzə dayanmışdır. Lakin Azərbaycanın cəngavər oğulları bütün bu fəlakətləri, faciələri böyük mərdliklə, qəhrəmanlıqla dəf edərək doğma Azərbaycanımızı bu günümüzə qədər gətirib çıxarmışlar. Doğma Azərbaycanımız da cəsur, mərd oğullarımızın adı ilə hər zaman fəxr etmiş, onların adlarını daim uca tutmuşlar.**

# Şəhidlər Xiyabanında

XX əsr də bir çox gözəl illər kimi yaddaşımıza həkk olundusa da faciəli, fəlakətli tarixini də yaşatmalı oldu bizlərə. 20 Yanvar, Xocalı faciələri isə Azərbaycan tarixinin ən qanlı səhifələrinə çevrildi. Azərbaycan oğulları bu faciələrə də böyük mərdliklə sinə gərərək Şəhidlik kimi ən uca zirvəyə ucaldılar. Onlar öz müqəddəs ölümləri ilə Azərbaycan tarixinin yeni bir səhifəsini- şanlı səhifəsini yazdılar.

"Şəhidlər Xiyabanı" ! İstər uşaq olsun, istərsə də böyük fərqi yoxdur, bura hər bir Azərbaycan vətəndaşı üçün müqəddəs bir yer, müqəddəs bir məbədgahdır. Çünki, burada uyuyan hər bir Azərbaycan övladının qanı öz vətəninin, öz torpağının, öz xalqının azadlığı uğrunda axıdılıb.

Mən 1990-cı ildə Bakı şəhərində təhsil alarkən tələbə yoldaşlarımla şəhidlərin qırxında "Şəhidlər Xiyabanı"na getdim. Bundan sonrakı illərdə də mən Bakı şəhərində olarkən "Şəhidlər Xiyabanı"na getmişəm və bir neçə şəhid məzarı üzərinə gül qoymuşam. Mən qəlbi dağlı anaların ürək parçalayan fəryadlarını, iniltilərini eşitmişəm "Şəhidlər Xiyabanı"nda. Qaynatalarının, qaynanalarının yanında qısılıb için-için ağlayan ismətli gəlinlərimizi gördüm "Şəhidlər Xiyabanı"nda. Bir anlıq mənə elə gəldi ki, paklıq rəmzləri hesab edilən bu gəlinlər öz həyat yoldaşlarının məzarları üzərinə əyilib hıcqırıqları içərisində "Arxayın yat, mən sənin adına layiq övlad böyüdəcəyəm" -söyləyirdilər sanki. Şəhid övladları gördüm Şəhidlər Xiyabanında və onu da gördüm ki, hələ həyatda bərkə-boşa düşməyən bu uşaqlar öz atalarının məzarlarına böyük fəxrlə baxaraq sanki şəhid övladı olmaqla fəxr edirdilər.

Doğrudan da, belə bir torpaqda yaşamağa dəyər. Onun hər bir qarışını gözbəbəyi kimi qorumaq hər bir azərbaycanlının müqəddəs borcudur. Çünki, bu torpaq müqəddəsdir. Ona görə müqəddəsdir ki, o, günahsız insan qanı ilə suvarılmışdır.

İndi Azərbaycana gələn hər bir kəs ilk öncə "Şəhidlər Xiyabanı"na gələrək buranı ziyarət edir, bu cəsur, mərd oğulların məzarları üzərinə gül dəstələri qoyaraq onların ruhuna ehtiram göstərirlər. Deməli, şəhidlərin adları Azərbaycanın ən unudulmaz, parlaq yaddaşı, "Şəhidlər Xiyabanı" isə ən müqəddəs bir ziyarətgahıdır. Respublikamızın elə bir yeri, elə bir

bölgəsi yoxdur ki, orada "Şəhidlər Xiyabanı" olmasın. Bəli, doğrudan da, Azərbaycan torpağının öz oğulları ilə fəxr etməyə haqqı var.

Kürdəmir rayonunun mədəniyyət işçiləri ilə birlikdə rayonumuzdakı "Şəhidlər Xiyabanı"na getmişdik. "Şəhidlər Xiyabanı"na çatmamış bir neçə ananın fəryadlarını, ağılarını, laylalarını eşitdim. Nədənsə, bir ananın səsi məni daha çox tutdu. Elə bildim ağır bir yük altına düşdüm. Biz "Şəhidlər Xiyabanı"na daxil olub bütün şəhidlərin məzarlarını ziyarət etdik. Sonra isə mən heç bilmirəm nə üçünsə bayaq səsi məni ox kimi tutan ananın yanında gəlib dayandım. Analar öz oğullarının şəkillərini qucaqlayıb onları oxşayır, ağılar deyir, laylalar söyləyirdilər. Heç kim anaların ürək parçalayan bu səslərinin qarşısında bir söz deməyə cəsarət etməyir, onları qorxutmaqdan çəkinirdilər sanki. Onlar hönkürtülərini içlərində boğa-boğa, yanıqlı-yanıqlı ağlayaraq anaların bu fəryadlarına, bu iniltilərinə cavab verirdilər. Mən göz yaşları içərisində dayanıb şəhidlərin məzarları üzərindən boylanan şəkillərə və bir də bu məzarlar qarşısında qan-yaş tökən analara baxıb fikirləşdim:

-İnsan dünyaya gələndə ona laylalar çalınır. Həyatın nə olduğunu bilməyən, sözün, cümlənin mənasını başa düşməyən körpələr laylaların sehirli aləminə düşərək xumarlanır və bu sehirkar aləmdə yuxuya gedirlər.

Dünyadan köçən insanlar üçün də laylalar çalınır. Kim bilir, bəlkə də dünyadan köçən insanlar da bu sehirli aləmdə, yəni laylalar aləmində rahat uyuyurlar.

Mən burada çox ağır bir mənzərə ilə üz-üzə dayanmışdım.

Yanında dayandığım ana arıq, zəif əllərini oğlunun məzarına tərəf uzadıb hey ağlayır, ağlayırdı.

Şəkildən boylanan oğul isə sakit-sakit anaya baxıb gülümsəyirdi. "Mən belə etməyə bilməzdim, ay ana. Çünki mən sənin insanları mərdliyə, cəsarətə səsləyən laylalarını, bayatılarını eşidə-eşidə, onları dinləyə-dinləyə, onlardan qidalanaraq böyümüşəm. Buna görə də mənim mayam qəhrəmanlıqdan, mərdlikdən yoğrulub. Sən məni belə böyütmüsən, ay ana! " -söyləyirdi şəkildən boylanan oğulun gözləri sanki.

Mən çevrilib yenidən səsi ürək yandıran, qəlb titrədən anaya baxdım. Mənə elə gəldi ki, payız leysanı tək yaş tökən bu gözlərdə bir inam, bir rahatlıq var idi. Bu ananın timsalında bütün şəhid analarının obrazı canlandı mənim gözlərimin qarşısında. Mənə elə gəldi ki, bu anaların vüqarı, əzəməti qarşısında heç kəs, heç nə tab gətirə bilməz. Bu vüqar, bu əzəmət qarşısında hər şey acizdir. Bu analar həmin analardır ki, oğullarını hərbi xidmətə yola salarkən "Get, yolun uğurlu olsun. Əgər qorxsan, Vətənə xəyanət etsən südümü sənə halal etmərəm" söyləyirlər. Bu analar həmin analardır ki, min bir əziyyətlə, gözlərinin yağı, ürəklərinin təpəri ilə böyütdükləri oğullarını Vətən üçün böyüdürlər. Bəlkə də elə buna görədir ki, tankların, topların qarşısında sinələrini sipər edən, heç nədən qorxmayan igidlər bir ana örpəyi qarşısında baş əyirlər. Bu örpəyi dünyanın ən müqəddəs bir qüvvəsi hesab etdikləri üçün onu heç vaxt ayaqlamır, qarşısında diz çökür, ona səcdə edirlər, onu hər şeydən uca tuturlar. Mənə elə gəlir ki, ana adının müqəddəsliyi də məhz bundadır. Elə buna görə də hər zaman ana adı ilə Vətən adı qoşa çəkilir.

Mən "Şəhidlər Xiyabanı"ndan çıxarkən əyilib bu ananın zirvədə qarı xatırladan ağ saçlarından və bir də vüqarlı alnından öpmək istədim, amma cəsarət etmədim. Ona görə cəsarət etmədim ki, mən o anaları göylərdən yerə göndərilmiş, saflıqdan, paklıqdan yoğrulmuş müqəddəs, toxunulmaz varlıqlar hesab edirəm. Buna görə də dayanıb hey baxdım-baxdım!

Biz "Şəhidlər Xiyabanı"nda kədər, göz yaşları ilə qarşılaşsaq da gedəndə çox şeylər aparmalı olduq özümüzlə. Hər dəfə biz "Şəhidlər Xiyabanı"na gələrkən bu müqəddəs ocaq bizim yaddaşımızda unudulmaz, daimi bir iz qoyur.

Biz geri qayıdarkən mən bir daha çevrilib bu müqəddəs yerə baxdım. Fikirləşdim ki, bu cür anaları və oğulları olan torpaq düşmən tapdağında qala bilməz.

***Mənə elə gəlir ki, "Şəhidlər Xiyabanı" öz əzəməti, ucalığı və vüqarı ilə o qədər yüksəkdə durmuşdur ki, dünyanın hansı tərəfindən baxılsa bu əzəməti, bu ucalığı, bu müqəddəsliyi görmək olar. Buna görə də "Şəhidlər Xiyabanı" bütün insanlar üçün ən müqəddəs bir məbədgahdır.***

**● M.ƏLİYEVA,**
***Kürdəmir Rayon MKS-nın metodika-biblioqrafiya şöbəsinin baş kitabxanaçısı***